ədalət.2017.8 aprel.S.6.



# SÖZÜNDƏN TANINAN ŞAİR

***VURĞUN ƏYYUB***
***Xəzər Universitetinin departament müdiri, Filologiya üzrə fəlsəfə doktoru***

**Heç kəsə sirr deyil ki, bu gün kitab oxuyanların, şeir dinləyənlərin sayı narahatlıq doğu-racaq dərəcədə azdır. Bunun səbəbləri üzərində dayanmaq niyyətində deyiləm. Lakin deməliyəm ki, oxucu qıtlığı yeni problem deyil. Hələ 50 il bundan qabaq böyük Azərbaycan şairi Məmməd Araz şeirin, kitabın taleyi barədə narahatlığını belə ifadə etmişdi: "Görən doğrudanmı oxunmur şeir?!"**

Başqa narahatlıq doğuran cəhət odur ki, kitab oxuyanların sayı azalsa da, "kitab" yazanların və çap etdirənlərin sayı artmaqdadır. Bu şair və şeir bolluğunda seçilmək, kitablarına oxucu tapa bilmək üçün istedad, geniş poetik nəfəs, orijinal ifadə forması tələb olunur. Kəmaləddin Qədim məhz bu keyfiyyətlərə malik olduğu üçün öz oxucuları olan, sözündən tanınan bir şairdir.

Kəmaləddin bəy zəngin, mübarizələrlə dolu bir vətəndaş və şair ömrü yaşayıb. Doğulduğu Naxçıvanda Azadlıq mübarizəsinin fəallarından olub, əldə silah Sədərkdə erməni işğalçılarına qarşı vuruşub. Bu vuruş yalnız odlu silahla olmayıb. O həm də qələmi ilə gördüyü haqsızlığa, ədalətsizliyə, insanı əsarətdə, zülmdə, məhdudiyyətlər zəncirində saxlamaq istəyən qayda-qanunlara qarşı vuruşub. Etirazlarını həm də Şeirin ecazkar dili ilə ifadə edib, kitablarını nəşr etdirib, oxucusu ilə dərdləşib, fikir və duyğularını onlarla bölüşüb. Şair üçün qaranlığa, məchulluğa gedən yol - ölüm belə qorxulu deyil. İnsanlığa gərək olmaq, qaranlıqlara işıq salmaq diləyi onu bu dünyadan getməyə münasibətdə qorxmaz və cəsarətli edir:

**Tanrım, bu viranlığa,**
**Görk elə bir anlığa.**
**Göndər bir qaranlığa,**
**Dönüm çırağa gedim.**

Kəmaləddin lirik şairdir, onun süjetli şeirlərinə nadir halda rast gəlmək olur. Dünya, olub keçənlər, gördükləri yalnız onun fərdi yaşantılarının odunda bişdikdən sonra şeir statusu qazana bilir. Klassik ədəbiyyatımızın ənənələrinə bağlı bir qələm sahibi kimi Kəmaləddinin şeirləri də Tanrı, Dünya - İnsan münasibətləri mövzusundadır. Əslində ədəbiyyatın bütün mövzuları bu ücbucaq içərisindən seçilir. Dünyaya gəliş də, dünyadan gediş də, sevgiyə qul olmaq, hicrana tuş gəlmək, kədərə şərik olmaq, dərdə yenik düşmək, Vətən həsrəti, ata-ana məhəbbəti - hər şey əzəli və əbədi Tanrı, Tanrının sevgiylə yaratdığı Dünya və onun üzərində yaşamağa göndərdiyi İnsanın münasibətlərinin ifadəsindən başqa bir şey deyil. İnsan bu dünyada qəribdir, onun Dünya ilə münasibətləri gah fərəh verir, gah dərd gətirir, gah şadlıq yaradır, gah etiraz doğurur. İnsan bu dünyada qonaq olsa da, dünya onu qonaq kimi sevmir. Bu şairin qənaətidir və bu qənaət özünün poetik ifadəsini kifayət qədər uğurlu bir şəkildə tapa bilib:

**Nəyini sev deyim, canım,**
**Harasına güvən deyim?**
**Dünya nə dövlətdə dəvən**
**Nə övladda nəvən deyil.**



**Güc yeridi, zor yeridi,**
**Çəpik yeri, xor yeridi.**
**Nə Şuşası gor yeridi,**
**Nə bayrağı kəfən deyil...**

**Öz-özünə göz dağısan,**
**Öt də, elə son ağısan.**

**Baxma Allah qonağısan,**
**Dünya qonaq sevən deyil.**

İnsan ömrü çeşidli təzadların, yaxşı ilə pisin yanaşı mövcudluğu ilə içərisində keçib gedir. Bu ömür sürəcində şair hər zaman yaxşıların, xeyrixahlığın, işığın yanındadır. O, mələkləri gördüyü kimi, şeytanları da, "adam cildinə girib şeytana daş atan şeytanları" da tanımağı bacarır. Tanrı dərgahında əməllərinin, istəklərinin xoş qarşılacağına olan ümid və inam şairi pisliklər, şeytanlar qarşısında əyilməz edir, o zindanda olsa belə oraların hökmdarı statusunda olduğunu nadanların üzünə hayqırır:

**Mən nəyin, sən nəyin divanəsisən,**
**Mən nəyin, sən nəyin pərvanəsisən.**
**Mən kiməm, sən kimin, nəsin nəsisən,**
**Zindanda kralam, sarayda qulsan.**

Kəmaləddinin şeirləri yalançı pafosdan, gurultulu ifadələrdən, "can-can, Azərbaycan" şablonlarından uzaqdır. Onun yazdıqları ağrıdan doğulmuş şeirlərdir: itirilmiş torpaq ağrısı, könlüncə yaşanmamış ömür ağrısı, vaxtsız gələn, həsrətə, hicrana tuş olan sevgi ağrısı onun şeirlərinin misralarından boy göstərir.

Kəmaləddinin şeirlərinin bir özəlliyini də qeyd etmək istərdim. Onun ağrı ilə yoğrulmuş şeirlərinin içərisində qəribə, güclə sezilləcək bir yumor hissi var. Mən ona kədərli yumor deyərdim. Onun şeirlərində kədərin, Tanrının qəribə işlərinə yumor və istehzalı bir yanaşma da özünü göstərir. Sanki şair hərdən kədərin ağırlığından, zül-mündən, sitəmindən yumora sığınır, istehazanın dili ilə yaralı qəlbini ovudur.

**Bax üzümə, dal bir az,**
**Lap lal olaq, lal bir az.**
**Demirəm ki, qal...bir az**
**bax, bir az görün, qayıt**

Kəmaləddin Qədimin şeirlərinin dili canlı xalq dilinin tükənməz bulağından su içir, ordan qidalanır. Xalq dilinin lakonikliyini, ahəngini, ritmini, vurğu və intona-siyasını bilmədən onun şeirlərindəki duyğu zənginliyini, fikir yığcamlığını duymaq, anlamaq mümkün deyil.

Kəmaləddinin son illərdəki şeirlərinin yazılma tarixinə baxıram: az qala hər günə bir şeir düşür. Sanki şeir yazmaq onun üçün hər gün etdiyi Allaha ibadət kimi bir işə çevrilib. Bunun müsbət cəhəti odur ki, şair həyatda baş verənlərə, gördüklərinə, yaşadıqlarına biganə deyil, düşüncə və duyğularını isti-isti kağıza köçürür. Qüsur cəhəti isə odur ki, Kəmaləddin yazdıqlarını tez-tələsik ictimailəşdirməyə çalışır, şeirlərinin üzərində az işləyir. Bu isə bəzən yerinə düşməyən, dolaşıq, "pəltək" söz və misraların ortaya çıxmasına səbəb olur. " Gözlədiyin xoş xəbərin, Ayaqları yeyin ola". Dilimizdə "Qədəmləri yüngül olsun" deyimi var. Şairin "qədəmləri" kimi incə səslənişli, tarixi-bədii ənənəyə malik bir ifadəni bu şeir içərisində kobud səslənən, mənanı dəqiq ifadə etməyən "ayaqları" sözü ilə əvəz etməsinə heç bir ehtiyac yox idi. Onun şeirlərində yerinə düşməyən, heca əskikliyini doldurmaq, yaxud qafiyə naminə işlədilən, kamilliyə xələl gətirən söz və ifadələrə də rast gəlinir. İnanıram ki, üzərində daha ciddi şəkildə işləsə, axtarışlardan usanmasa, bu cür qüsurları onun şeirlərində görməyəcəyik!

**Və son olaraq bu il 60 yaşı tamam olan Kəmaləddin Qədimi təbrik edərək ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram!**